**Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin**
**20 fevral 2018-ci il tarixli F101 nömrəli**
**əmri ilə təsdiq edilmişdir.**

# “Ən yaxşı təqdimat” müsabiqəsinin keçirilmə

# Qaydaları

## 1. Ümumi müddəalar

Azərbaycan xalqının dahi oğlu, qüdrətli dövlət xadimi və müdrik siyasətçi, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işinin daha da gücləndirilməsi şagirdlərin inkişafında mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin ümummilli liderlə bağlı fikirlərinin, duyğularının dilə gətirilməsi, həmçinin onların düşüncə qabiliyyətinin, nitqinin formalaşdırılması məqsədilə ümumtəhsil məktəb şagirdləri arasında həyata keçirilməsi nəzərdə tutulan “Ən yaxşı təqdimat” müsabiqəsi bu istiqamətdə atılacaq uğurlu addımlardan biridir.

Müsabiqənin bu istiqamətdə əhəmiyyəti də danılmazdır. İcrası nəzərdə tutulmuş “Ən yaxşı təqdimat” müsabiqəsi istedadlı, yüksək analitik düşüncə və təhlil qabiliyyətinə malik şagirdlərin üzə çıxmasına xidmət edəcəkdir.

## 2. Müsabiqənin vəzifələri

1. Şagirdlərin tarixi biliklərinin artmasına, dil və nitq qabiliyyətinin formalaşmasına təkan vermək;
2. Şagirdlərə fikirlərini ifadə edə bilmə bacarığını inkişaf etdirmə təcrübəsini qazandırmaq;
3. İstedadlı şagirdləri aşkar etmək;
4. Şagirdlərin həvəsləndirilməsi və tarixə olan marağının artırılmasına müsbət təsir etmək;

## 3. Müsabiqənin keçirilmə qaydaları

Müsabiqə ölkə üzrə ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə həyata keçiriləcəkdir. Müsabiqə Azərbaycan xalqının dahi oğlu, qüdrətli dövlət xadimi və müdrik siyasətçi, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar ümumtəhsil məktəb şagirdləri arasında Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirmək məqsədinə xidmət edəcəkdir.

Dörd mərhələdən ibarətdir. Müsabiqə çərçivəsində ilk mərhələ ***28.02.2018-ci il*** tarixədək məktəbdaxili keçiriləcəkdir. İlk mərhələnin nəticələrinə görə turu adlamış hər məktəbdən 1 nəfər şagird ikinci-rayon mərhələsində iştirak hüququ əldə edəcəkdir. Rayon mərhələsi ***05-09.03.2018-ci il*** tarixlərində həyata keçiriləcəkdir. Rayon mərhələsindən keçən təqdimatlar şəhər mərhələsində iştirak hüququ qazanacaqdır. Şəhər mərhələsi ***15-16.03.2018-ci il*** tarixlərdə həyata keçiriləcəkdir. Şəhər mərhələsinin yekununda 12 təqdimat 2018-ci ilin aprel ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçiriləcək ölkə turunda iştirak hüququ əldə edəcəkdir.

**Müsabiqə zamanı aşağıda qeyd olunan qiymətləndirilmə meyarları nəzərdə tutulur:**

1. Təqdimatçının sərbəstliyi, nitqinin səlisliyi, ifadəliliyi, lüğət ehtiyatının zənginliyi
2. Təqdimatın maraqlı forma əsasında qurulması
3. Təqdimatın maksimum 10 dəqiqə davam etməsi
4. Ulu öndər Heydər Əliyevin geniş miqyaslı fəaliyyəti barədə dolğun və əhatəli məlumata malik olduğunu nümayiş etdirməsi
5. İrəli sürdüyü fikirləri faktlarla əsaslandırması
6. Təqdimatda Ümummilli liderin fikirlərinə istinad etməsi və müvafiq sitatların səsləndirməsi
7. Söylədiyi fikirlərin təsir gücünü artırmaq məqsədilə ədəbi-bədii nümunələrə müraciət etməsi
8. Təqdimatın ruhuna uyğun müvafiq jestlərdən və səs tonundan məqsədyönlü istifadə etməsi
9. Ulu öndərin Vətən və xalq qarşısında şəxsi mülahizələrini bildirməsi
10. Təqdimatı müəyyən olunmuş müddətdə başa çatdırması

### 10.1 Müsabiqənin ilk mərhələsində iştirak qaydaları

a. Məktəblərin 9,10 və 11-ci sinif şagirdləri iştirak etməlidir.
b. Məktəbdaxili həyata keçirilməlidir.
c. 28.02.2018-ci il tarixədək nəticə BŞTİ-yə bildirilməlidir.

### 10.2 Müsabiqənin rayon mərhələsi

İlk turu uğurla keçən şagirdlər rayon mərhələsində iştirak edəcəkdir. Rayon turu 05-09.03.2018-ci il tarixlərdə təşkil olunacaqdır. Rayon turu Müsabiqənin Təşkilat Komitəsi tərəfindən müəyyən edilmiş ünvanda həyata keçiriləcəkdir. Rayon mərhələsində iştirak hüququ qazanan təqdimatlara Təşkilat Komitəsi tərəfindən təyin edilən münsiflər heyəti tərəfindən baxış keçiriləcəkdir. Rayon üzrə ən uğurlu hesab edilən 5 təqdimat şəhər mərhələsinə keçmək hüququ qazanacaqdır.

### 10.3 Müsabiqənin şəhər mərhələsi

Müsabiqənin şəhər mərhələsi 15-16.03.2018-ci il tarixlərdə təşkil olunacaqdır. Şəhər mərhələsində ən yaxşı 12 təqdimat seçilərək ölkə mərhələsinə göndəriləcəkdir.

## 4. Müsabiqənin təşkili məsələləri

| № | Mərhələlər | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Məktəblərin məlumatlandırılması (əmrin məktəblərə göndərilməsi) | 20.02.2018 | BŞTİ |
| 2 | Məlumatların saytda yerləşdirilməsi | 20.02.2018 | BŞTİ |

| | | | |
|---|---|---|---|
| **3** | Müsabiqənin ilk turunun keçirilməsi | 20.02.2018 - 28.02.2018 | Məktəblər |
| **4** | Müsabiqənin ilk turunun nəticələrinin məktəblər tərəfindən onlayn şəkildə BŞTİ-yə göndərilməsi | 01.03.2018-dək | Məktəblər |
| **5** | Rayon mərhələsinin keçirilməsi | 05-09.03.2018 | BŞTİ-TDM |
| **6** | Şəhər mərhələsinin keçirilməsi | 15-16.03.2018 | BŞTİ-TDM |
| **7** | Nəticələrin açıqlanması | 26.03.2018 | BŞTİ |
| **8** | Ölkə mərhələsinin keçirilməsi | aprel 2018 | Təhsil Nazirliyi |